USAID
ამერიკელი ხალხისგან

PH international
ADVANCING SOCIETIES, CONNECTING PEOPLE

# Masaüstü oyun

# „Birlikdə“

Masaüstü oyun USAID-in Mülki Təhsil Proqramı çərçivəsində hazırlanıb

# Masaüstü oyun

# „Birlikdə“

Masaüstü oyun USAID-in Mülki Təhsil Proqramı çərçivəsində hazırlanıb

**Masaüstü oyun USAID-in Mülki Təhsil Proqramı çərçivəsində hazırlanıb**

**Müəlliflər:**
Sopo Baçilava

**Azərbaycan dilinə tərcümə etdi:**
Leyla Əkbərova

**İşçi qrupun rəhbəri:**
Maka Bibileişvili

**Redaktor:** Rita Bainduraşvili

**Resurs, Amerika xalqının dəstəyi və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin səyləri əsasında hazırlanıb. Daxilində əks olunan məlumat və ifadə olunan fikirlər üzrə məsuliyyət yalnız müəlliflərə məxsusdur və o PH international, ABŞ Beynəlxalq İnkişaf Agentliyi və ya Amerika Birləşmiş Ştatlar Hökumətinin fikirlərini əks etdirmir.**

**2023-cü il**

## Önsöz

**2022-2027-ci illərdə PH international təşkilatı tərəfindən Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyələşdirməsi və Gürcüstanın Təhsil və Elm Nazirliyinin dəstəyi ilə Gürcüstanda USAID-in vətəndaş təhsili proqramı həyata keçirilir.**

**Proqramın məqsədi, yüksək vətəndaş şüuruna malik, mülki proseslərdə iştirak edən gənclərin yetişdirilməsidir. Proqram vətəndaş təhsilinin təlim-tədris prosesində texnologiyaların tətbiqini, məktəbdə demokratik mədəniyyətin tətbiqini təşviq etməyi, biznes və məktəblər arasında əlaqə yaratmağı nəzərdə tutur, ki proqram çərçivəsində funksional yükü bölüşdürərək, bu məqsədə çatmaqda imkan yaranır.**

**Proqram çərçivəsində Vətəndaş Təhsili Müəllimlərinin Forumu məktəb demokratiyasının gücləndirilməsinə və vətəndaş təhsilinin keyfiyyətli tədrisinə imkan yaradır. Məhz bu məqsədlə Masaüstü "Birlikdə" oyunu yaradıldı.**

**Hesab edirik ki, bu növ resurslar təlim prosesini şagird yönümlü, maraqlı edir və nəzəri bilikləri**

**praktikada tətbiq etmək imkanı verir.**

**Sizlərə uğurlar arzulayırıq!**

**Mündəricat**


Oyunun tədris məqsədi

Oyunun təhsil vəzifələri

Oyun kim üçün nəzərdə tutulub?

Oyunun əsas mahiyyəti

Ümumi göstəricilər

Oyunda istifadə olunan terminlərin izahı

Oyunun aparıcısı kim olmalıdır?

Oyunun qaydaları və gedişatı

Aparıcılar üçün məsləhətlər

Oyunun atributları

Oyunçuların rollarına müvafiq funksiyalar kartı

Situasiya kartlarından istifadə təlimatı Əlavələr:

Əlavə N1 – Situasiya kartları

Əlavə N2 – İnfoqrafiklər

Əlavə N3 – Nəticələrin əks olunacağı cədvəl

## OYUNUN TƏDRIS MƏQSƏDI

"Birlikdə" masaüstü oyununun məqsədi şagirdlərin demokratik dövlətin formalaşması və insan hüquqlarının müdafiəsi kontekstində şaquli və üfüqi hakimiyyət bölgüsü sisteminin, vətəndaş cəmiyyətinin mahiyyətini və əhəmiyyətini dərk etmələridir; Şagirdlərə göstərməkdir ki, dövlətdə mövcud müxtəlif qurumlar və vətəndaşların özləri də insanların üzləşdiyi çətinliklərin öhdəsindən gələ və vətəndaş cəmiyyətinin fəaliyyətində iştirak edə bilərlər, ən əsası onlar bu proseslərdə əməkdaşlığın vacibliyini dərk edəcəklər.

## OYUNUN TƏHSIL VƏZIFƏLƏRIDIR:

- Şagirdlər mərkəzi hökumət qollarının, yerli özünüidarəetmnəninv ə vətəndaş cəmiyyətinin mahiyyətini və funksiyalarını dərk etsinlər;
- Şagirdlər demokratik dövlətin müxtəlif səviyyələrdə insan hüquqları ilə bağlı çağırışlara necə cavab verməli olduğunu dərk etsinlər;
- Şagirdlər demokratik dövlət quruculuğuna vətəndaş cəmiyyətinin cəlb edilməsinin vacibliyini və onun hansı formalarda ifadə oluna biləcəyini görsünlər.

## OYUN KIM ÜÇÜN NƏZƏRDƏ TUTULUB?

Oyunda şagirdlərin "Vətəndaşlıq" proqramı üzrə 8-9-cu siniflərdə qarşılaşacağı mövzular və problemlər (vətəndaş cəmiyyəti, yerli özünüidarəetmə, mərkəzi hökumət, insan hüquqları) müzakirə olunur. Şagirdlərin Alqo oyununu asanlıqla mənimsəmələri üçün ən azı 9-cu sinifdə olmaları və oyunu oynamazdan əvvəl yuxarıda sadalanan mövzular və məsələləri xatırlamaları məsləhətdir.

## OYUNUN ƏSAS MAHIYYƏTI

Oyun 5 raunddan ibarətdir, bu müddət ərzində oyunçular cəmiyyətin üzləşdiyi müxtəlif problemlər haqqında hekayələr öyrənəcəklər (Əlavə N1). Beş raund ərzində oyunçular 5 fərqli çağırış/problem eşidəcəklər, müxtəlif rollardan həll edəcək və onların həlli yollarını müzakirə edəcəklər.

Roluna əsaslanaraq, raundda müzakirə olunan problemi həll etmək üçün düzgün qərar verən oyunçu, müvafiq kart şəklində mükafat alır. Qalib, beş raundda bütün 5 roldan irəli gələrək 5 fərqli problemi həll etməyi bacaran və beş rəngli mükafatın hamısını əldə edən şəxsdir.

Oyunçu rolları aşağıdakı strukturlara müvafiqdir: Parlament (Qanunverici hakimiyyət), Nazirlər Kabineti (İcraçı hakimiyyət), Məhkəmə (Məhkəmə hakimiyyəti), Yerli Özünüdarəetmə (Yerli hakimiyyət) və Vətəndaş Cəmiyyəti (Fəal Vətəndaşlar, Media, QHT-lər).

## ÜMUMI GÖSTƏRICILƏR

**Lazımi vaxt** – 30 dəqiqədən 2.30 saata qədər

**İştirakçıların sayı** – 5-dən 30-a qədər

**İştirakçıların yaşı** – 13 +

## OYUNDA ISTIFADƏ OLUNAN TERMINOLOGIYA:

**Rol** - Oyunçunun eşitdiyi hekayədəki çağırışı/problemi həll etməli olduğu strukturu göstərir;

**Lövhə** - Oyun lövhəsindəki hər bir rola xüsusi rəngli xanalar uyğun gəlir: Parlament - mavi, Nazirlər Kabineti - yaşıl, Məhkəmə - çəhrayı, Yerli özünüidarəetmə - bənövşəyi və vətəndaş cəmiyyəti - sarı. Lövhədə almaz xanalar da var, onlardan istifadə hüququ ikinci turdan aktivləşir. Buna görə də ilk turda iştirakçılara almaz xana üzərində dayanmasına icazə verilmir. (lövhəyə bax);

**Oyunçu fiquru** - Oyun 5 fiqurla (dairə, üçbucaq, dördbucaqlı, beşbucaqlı, altıbucaqlı) gəlir. Oyunun əvvəlində iştirakçı bir fiqur seçir və oyun boyu bu fiqurla oynayır;

**Pozisiya** - Lövhədə oyunçu fiqurunun müvafiq yerini/xanasını və eyni zamanda rolu bildirir, çünki hər mövqe müəyyən bir rola uyğundur. Bununla belə, bir rol lövhədə bir neçə yerdə/mövqedə təkrarlanır. (lövhəyə bax);

**Raund** - Bütün oyunçular bir hekayə haqqında öz qərarlarını qeyd edirlər. Oyun ümumilikdə 5 raunddan ibarətdir.

**Mükafat** - İştirakçı problemi düzgün həll edərsə, aldığı "Mükafat" yazısı olan rola uyğun rəngli kart (qərar iştirakçının fiqurunun dayandığı rola uyğun olmalıdır və buna görə də o, hansı rəngdə dayanıbsa həmin rəngdə bir kart alacaq).

**Aparıcı** - Oyunda iştirakçılara hekayəni təqdim edən, onların cavablarını dinləyən və bu cavabların nə dərəcədə düzgün olduğunu qiymətləndirən aparıcı lazımdır.

## OYUNUN APARICISI KIM OLMALIDIR?

Bu, məzmunu "Vətəndaşlıq" fənninə tam uyğun gələn təhsil oyunu olduğundan, oyunun aparıcısı vətəndaş təhsili müəllimi və ya şagirdləri oyuna hazırlayacaq, onlara lazımi materialı xatırladacaq və ya öyrədəcək müvafiq ixtisasa malik şəxs nəzərdə tutulub. O şagirdlərə oyunun qaydalarını təqdim etməli, situasiya hekayələrini oxumalı və iştirakçıların cavabı rolundan asılı olaraq nə qədər düzgün verdiyini başa düşməlidir. Eyni zamanda, aparıcı oyun nəticəsində müzakirə olunan məsələlərin daha yaxşı başa düşülməsi üçün maraqlı müzakirələrin aparılmasına kömək edəcək.

Aparıcı əvvəlcədən oyun təlimatlarında verilmiş materiallarla tanış olmalıdır. Oyun başlamazdan əvvəl isə iştirakçılara qaydaları aydın şəkildə izah etməlidir.

## OYUNUN QAYDALARI VƏ GEDIŞATI

- Əvvəlcə oyunçuların kimlər olduğu müəyyən edilməlidir. Oyun elə qurulub ki, həm komandalar, həm də fərdi oyunçular iştirak edə bilsinlər.

**Məsələn, 5 fərdi oyunçu və ya bir neçə iştirakçıdan ibarət 5 komanda. Hər komandada 6 oyunçudan, yəni ümumilikdə 30-dan çox iştirakçının olmaması arzu edilir.**

- Oyun başlamazdan əvvəl hər bir oyunçuya insan hüquqları haqqında infoqrafika verilməlidir (bax: Əlavə N2), onun köməyi ilə iştirakçılar insan hüquqlarını xatırlayacaqlar. Əlavə N2-də müəllim insan hüquqları ilə bağlı hüquqi sənədlərə aid veb- linklər də tapacaq.

- Oyun başlamazdan əvvəl bütün iştirakçılar/komandalar bir oyunçu fiqurunu seçirlər ki, bu da oyun lövhəsinin mərkəzində - Start sahəsinə yerləşdirilməlidir. Müvafiq olaraq, bütün fiqurlar eyni vaxtda mərkəzdə, qeyd olunan sahədə yerləşdirilməlidir.

***Komanda halında oyun zamanı hər komandaya bir fiqur müvafiq gəlməlidir***

- İştirakçıların yaşca ən kiçiyi və ya üzvlərinin orta yaşı ən kiçik olan komanda ilk olaraq oyun fiqurunu hərəkət etdirmək üçün Start sahəsinin hansısa bitişik, qonşu olan xananı seçir. Bu hərəkətlə oyunçu ilk raundda oynamağa üstünlük verdiyi rolu seçir.

***Əgər bütün iştirakçılar həmyaşıddırlarsa, mümkündür ki, aparıcı kağıza onların adlarını yazsın və təsadüfi prinsiplə, oyuna kimin başlayacağı seçilsin.***




## Köməkçi Kartlar

Parlament

Yerli özünüidarəetmə

Məhkəmə

Vətəndaş cəmiyyəti

Nazirlər Kabineti

- Oyunçular yalnız qonşu xanalarda hərəkət edə bilər, yəni yalnız xanaları və buna görə də ilk başdakı mövqelərinin ətrafındakı rolları seçirlər.
- Birinci oyunçu lövhəyə fiqurunu yerləşdirdikdən sonra ondan saat əqrəbi istiqamətində oturan digər oyunçular növbə ilə "Start" məkanına qonşu olan xananı, yəni rolu seçirlər.
- Bütün iştirakçıların/komandaların oyun fiqurları müvafiq mövqedə/xanada yerləşdirildikdə, yəni müəyyən bir rolu (Parlament, Nazirlər Kabineti, Məhkəmə, Yerli Hökumət, Vətəndaş Cəmiyyəti) seçdikdən sonra oyun başlayır.

***Nəzərə alın!***

***Oyunçular 5 turda 5 müxtəlif rəngli mükafat/kart almalıdırlar. Hər yeni turda hərəkət və buna görə də rol dəyişikliyi yalnız bitişik, qonşu xanalara, keçməklə aparılmalıdır. Mümkündür ki, prosesdə oyunçu kilidlənsin və rolları dəyişə bilməsin, bu da oyunçunun mükafatları tam toplamaq və beləliklə, oyunu qazanmaq şansını məhdudlaşdırır. Buna görə də, rəqibə maneə yaratmaq (rəqibin maraq dairəsində olan meydanları tutmaq) üçün oyunçuların əvvəldən oyuna hansı xanalardan başlaması və sonrakı raundlarda hansı kvadratlara keçməsi və eyni zamanda, rəqiblərin hərəkətlərini izləmək üçün onlara lazım olan rolun başqası tərəfindən alınmaması və ya ona gedən yolu kəsməməsi vacibdir.***

***Maarifləndirici oyunda istifadə olunan azartlı elementlər onu iştirakçılar arasında maraqlı və rəqabətli edir ki, bu da motivasiya və konsentrasiyanı artırmağa kömək edir.***

## RAUNDA BAŞLAMAQ

Bütün oyunçular öz mövqelərini tutduqdan sonra lider situasiya kartını oxuyur (Əlavə N1-ə baxın).

### RAUNDUN GEDIŞATI

Oyunçular öz rollarına əsaslanaraq raundda eşitdikləri hekayədəki problemi müzakirə edir, analiz edir və həlli yolları haqqında rəy bildirirlər.

**Məsələn, bir oyunçu yaşıl xanada dayanırsa, hekayə Nazirlər Kabinet rolundan müzakirə edilməlidir. Sarıda dayanırsa - Vətəndaş cəmiyyəti rolundan və s. Müxtəlif rollarda qəbul edilən qərarların bəziləri qabaqlayıcı, bəziləri isə mövcud problemin aradan qaldırılması/azaldılmasına yönəldilə bilər. Əsas odur ki, oyunçuların cavabları öz rollarına əsaslansın və həmin raundda dayandıqları rolların funksiyalarından kənara çıxmasın.**

- Qərar qəbul etmək, yəni həmin raundda iştirakçının təmsil etdiyi konkret qurum üçün situasiya kartında təsvir olunan problemi həll etmək/azaltmaq/qarşısını almaq, hansı potensial qərarın verilə biləcəyini düşünmək üçün fərdi oyunçuya 1 dəqiqə, komanda oyunu halında - 3 dəqiqə vaxt verilir.
- Qərar qəbul edərkən oyunçu öz rolunun konkret təfərrüatlarını müəyyənləşdirə və situasiyanın əlavə elementlərini özü düşünə bilər.

**Məsələn, oyunçu sarı xananın üstündə dayanırsa, yəni vətəndaş cəmiyyətini təmsil edirsə, cavab düşünərkən onun fəal vətəndaş, QHT və ya media olduğunu özü müəyyən edə bilər. Yaşıl xananın üzərində dayandığı halda, o, hansı nazirlik naziri, ya da baş nazir olduğunu özü seçir, çəhrayı xananın üstündə dayandıqda isə hansı məhkəmə instansiyasını təmsil etdiyinə və şikayətlə kimə müraciət etdiyinə qərar verə bilər. Yerli özünüidarətmə rolundaykən o, Sakrebulo yoxsa Meriyanı təmsil etdiyini seçə bilər.**

*Nəzərə alın!*

*Oyun, rolun ümumi funksiyalarını əhatə edən izahat kartları ilə müşayiət olunur.*

*Oyun zamanı oyunçu limitsiz izahlı kartlardan istifadə edə bilər.*

## RAUNDUN SONLANMASI

Problemin potensial həlli haqqında düzgün əsaslandıran, cavabları əslində seçdikləri roldan qaynaqlanan, həmçinin problemi həll edən/azaldan/aradan qaldıran oyunçulara rola müvafiq rəngli mükafat veriləcək. Bütün iştirakçılar fikirlərini bildirdikdən sonra aparıcı oyunçulara mükafat verir.

**Məsələn, əgər oyunçu lövhənin mavi xanasında dayanıbsa və buna görə də problemi parlamentin rolundan həll edibsə, o, mavi mükafat alacaq, problem Nazirlər Kabinetinin rolundan həll olunduğu halda - yaşıl və s**

Sonda, oyunun qalibi beş turda bütün beş rəngli mükafatı almağı bacarandır.

*Nəzərə alın!*

*Hər raund başa çatdıqdan və mükafatlar təqdim edildikdən sonra müzakirə olunan məsələ və aparıcının iştirakçılara təqdim etdiyi faktiki qərar haqqında disskusiyaların aparılması arzuolunandır.*

**Oyunun ümumi qaydaları:**

- Hər yeni raundun əvvəlində hər bir oyunçu mövqeyini dəyişir, qonşu xanalardan birinə keçir və müvafiq olaraq yeni bir rol alır.
- İstənilən raund başa çatdıqdan sonra yalnız əvvəlki raundda mükafat alanlar öz mövqeyini dəyişə bilər, yəni öz rolundan asılı olaraq situasiyada yaranan problemi düzgün həll edənlər.
- Rol və ya xana dəyişdirildikdə, oyunçu yalnız əvvəlki raundda öz fiqurun dayandığı xanaya bitişik hərəkət edə bilər.
- Lövhənin üzərində almaz olan xüsusi damalar var. Bir oyunçu, əgər o, almaz xananın yanında dayanırsa, ikinci raunddan həmin xanalardan istifadə edə bilər. Bu mövqe ona bu raundda hansı rolu oynayacağına qərar verməyə imkan verir. İştirakçı istədiyi rəng xanasına keçə bilmədikdə bu funksiyadan istifadə xüsusilə faydalıdır.

**Məsələn, əgər oyunçunun mavi rəngi çatışmırsa və onun hazırkı mövqeyinə bitişik mavi xana yoxdursa və ya artıq işğal olunubsa, o, almaz xananı tutaraq problemi mavi roldan (Parlamentdən) həll edəcəyini söyləyə bilər.**

***Nəzərə alın!***

***İştirakçı hər turda mövqeyini dəyişməyə çalışmalı və buna görə də fərqli bir rola uyğunlaşmalıdır. Əks halda o, 5 turda 5 fərqli rəngli mükafat ala bilməyəcək.***

***Almazdan istifadə edildiyi təqdirdə, oyunçu növbəti turda xananı mütləq dəyişdirməli, yəni almazlı xanada qalmamalıdır.***

- Raundların gedişatı zamanı iştirakçı əvvəlki turlarda olduğu mövqeyə qayıda bilməz.
- Həm oyunun əvvəlində, həm də sonra bir xanada yalnız bir oyunçunun fiquru yerləşdirilə bilər ki, bu da hər turda bir oyunçu və ya komandanın bir rola uyğun olması deməkdir.
- İştirakçı ətrafındakı bütün xanalar rəqiblər tərəfindən tutulduğu üçün başqa xanaya keçə bilmirsə, o, eyni mövqedə qalır və eyni roldan ikinci raundda müzakirə olunan hekayə problemini müzakirə edir.
- Arzuolunandır ki, bir raundda iki oyunçu eyni rəngli xanada eyni vaxtda dayanmasın, yəni eyni roldan eyni problemi müzakirə etməsinlər, lakin bəzi hallarda oyunçu kilidlənə bilər - ətrafında boş xana olmaya/və/və ya iki oyunçu eyni rəngli mükafata ehtiyac duya bilər, müvafiq olaraq, eyni rəngli mövqedə qarşılaşırlar. Belə olan halda hər iki iştirakçı problemi eyni roldan həll edəcək, lakin müzakirədə fərqli vurğular etməyə çalışmalıdırlar.
- Raund sonlandıqdan sonra, əgər problem heç bir rola əsaslanaraq

həll edilməyibsə və bu rol üçün potensial həllə nail olunmayıbsa, aparıcı oyunçulara buraxılan roldan problemin necə həll oluna biləcəyi barədə məlumat verir. Tutaq ki, raundda iki iştirakçı parlament roluna malik idisə və heç birinin - Nazirlər Kabinetinin rolu yox idisə, aparıcı problemin həlli məsələsi üçün Nazirlər Kabinetinə müraciət edir.

- Hər raundda oyun fiqurların mövqelərini dəyişdirərkən oyunçuların ardıcıllığı fərqli olmalıdır. Yəni, eyni iştirakçı fiqurun hara yerləşdiriləcəyini hər zaman ilk seçməməlidir, çünki bu, ona böyük üstünlük verəcək. Bunun üçün aparıcı oyunçuların adlarını vərəqlərə yazmaq və onları təsadüfi seçmək texnikasından istifadə edə bilər və ya internetə əlçatanlıq varsa, adların daxil oluna biləcəyi https://wheelofnames.com/ saytından istifadə edə bilər, bu halda sayt iştirakçını özü təsadüfi şəkildə seçəcək.

- Oyun zamanı iştirakçılar qarşılıqlı razılıq əsasında əldə etdikləri mükafatları bir-biri ilə mübadilə edə bilərlər (aparıcı bu qaydanı həyata keçirməyə qərar verir, lakin kartların dəyişdirilməsi ilə bağlı yekun razılaşmanı iştirakçıların özləri etməlidir).

**Məsələn, əgər oyunçu xananı dəyişə bilmirsə və eyni roldan iki fərqli məsələni ardıcıl olaraq iki dəfə həll edirsə, yəni eyni rəngli iki mükafat alırsa, istədiyi rəngdə mükafat/kartı olan başqa bir oyunçu ilə danışıqlar apara bilər və qarşılıqlı razılığa gələrsə, mükafatı rəqiblə mübadilə edə bilər.**

- Əgər oyunçu eyni mükafatdan ikisini toplayıbsa, yalnız bu halda, aparıcı iştirakçılara hər turdan sonra yeni situasiya kartını oxumazdan əvvəl mükafatların mübadiləsi ilə bağlı danışıqlar aparmaq üçün 30 saniyə vaxt verir. Danışıqlar nəticəsiz bitə bilər, bu halda oyun normal olaraq davam edəcək.
- Oyunda bir neçə qalib ola bilər.
- Əgər heç bir oyunçu beş turda 5 rəngli mükafat toplamayıbsa, o zaman həmin anda ən çox mükafat qazanan şəxs qalib hesab edilə bilər; Və ya 5 müxtəlif rəngli mükafat oyunçusu aşkarlanana qədər raundlar əlavə edilməlidir.

## APARICI ÜÇÜN MƏSLƏHƏTLƏR

- Şagirdlər komanda şəklində oynayırlarsa, masalarını yarımay şəklində və ya dairəvi formada düzmək daha yaxşıdır. Oyun lövhəsini elə yerləşdirin ki, hamı görə bilsin - stolun üstünə və ya döşəməyə.
- Oyun vaxtı fərdi oyunçuların və ya komandaların oynamasından asılıdır. Fərdi oyunçularda oyun təxminən 25-30 dəqiqə, komanda oyunu isə 40-50 dəqiqə davam edəcək, çünki komanda üzvləri arasında danışıqlar üçün lazım olan vaxt da nəzərə alınmalıdır.
- İstək halında iştirakçılar 5 raunddan sonra da oyunu davam etdirə və digər situasiya kartlarından istifadə edə bilərlər.

- Oyun elə qurulub ki, müəllim ondan tədris prosesində də istifadə edə bilsin. Oyun hazırlıq və yekun mərhələ ilə yanaşı üç dərs tələb edəcək: birinci dərsdə şagirdlər oyunla bağlı məsələləri təkrarlayacaq və qaydalarla tanış olacaqlar, ikinci dərs birbaşa oyuna, üçüncü dərs isə - fəaliyyətin qiymətləndirilməsinə həsr olunacaq.
- Maraq halında, müəllim oyunu birbaşa bir neçə dərsə bölə bilər, məsələn, bir dərsdə bir və ya iki situasiya kartını müzakirə edə və raundlar arasında müzakirələr üçün vaxt ayıra bilər.
- Müəllim raundları bir neçə dərsə bölmək qərarına gələrsə, hər dərsdə oyun prosesi zamanı iştirakçıların əldə etdikləri nəticələri yaxşı yadda saxlamalıdır ki, oyun əvvəlki dərsdə başa çatdığı vəziyyətdən tam şəkildə davam edə bilsin. Aparıcının iştirakçıların nəticələrini yazdığı xüsusi cədvəl onlara bu işdə kömək edəcək (Əlavə N3-ə baxın).

## SITUASIYANIN MÜZAKIRƏ MƏRHƏLƏSI NÜMUNƏSI

Verilmiş nümunədə Situasiya N1-də hər bir rolun nöqteyi-nəzərindən mümkün cavablar təklif olunur. Lakin təbii ki, bu cavablar oyunçuları məhdudlaşdırmır və onlar müxtəlif versiyaları qeyd edə bilərlər, bu halda əsas odur ki, iştirakçıların cavabları seçdikləri rolların xüsusiyyətlərindən qaynaqlansın.

**Situasiya N1**

Əsasən bağ evləri yerləşən kənddə yaşayış evlərinin bir neçə on metrliyində qanunsuz sement zavodu yerləşir. Zavod hər gün toz buraxır ki, sakinlər illərlə həmin tozla nəfəs almaq məcburiyyətində qala bilərlər.

Parlament – Qanuna dəyişiklik etdi, belə zavodlar yaşayış məntəqələrindən müəyyən radiusunda fəaliyyət göstərməməlidir. Eyni zamanda, davamlı inkişaf prinsiplərinə uyğun olaraq müəssisələrin əməl etməli olduğu qaydalar müəyyən edib.

Nazirlər Kabineti – Ətraf mühitin mühafizəsi Naziri ətraf mühitin çirklənməsi faktlarının aşkar edilməsi və qarşısının alınması məqsədilə bu və buna bənzər zavodların yoxlanılması qaydalarını müəyyən edən əmr verib.

Məhkəmə - Məhkəmə, zavodun sökülməsi ilə bağlı yerli özünüidarəetmə orqanının qərarının ləğv edilməsini tələb edən zavod sahibinin vəsatətini təmin etməyib.

Yerli özünüidarəetmə - Sement zavodunun sahibinə müəssisəni sökməyi tapşırdı

Vətəndaş cəmiyyəti – Sement zavodunun əhalidən uzağa köçürülməsi ilə bağlı imza toplamağa başlayan təşəbbüs qrupu yaradıldı; Həmin qrup məhkəməyə müraciət edib, təşəbbüs qrupunun nümayəndələri yerli özünüidarəetmə orqanları və media ilə fəal əlaqə saxlayır və qeyd olunan problemi ictimaiyyətə çatdırmağa çalışırlar.

## OYUNUN ATRIBUTLARI

“Birlikdə” masaüstü oyun, aşağıda qeyd olunan bir neçə komponentdən ibarətdir:

| Oyunçular üçün nəzərdə tutulan resurslar | | |
|---|---|---|
| **adı** | **sayı** | **funksiyası** |
| Lövhə | 1 ədəd | Lövhə 5 müxtəlif rəngli 25 xanaya bölünür, hər bir rəng və xana oyundakı rola uyğun gəlir. Həmçinin lövhədə 5 xüsusi almaz xana və bir Start məkanı var. |
| Situasiya kartları | 15 ədəd | Kartlarda insan hüquqları ilə bağlı problemlər haqqında hekayələr yer alır. Müəllimin oyunda müzakirə olunan hekayələrin faktiki davamına əlçatanlığı var və onu iştirakçıların cavablarını dinlədikdən sonra təqdim edir. |
| Oyunçu fiquru | 5 ədəd | Oyunçu fiqurlarıdır: dairə, üçbucaq, dördbucaqlı, beşbucaqlı, altıbucaqlı. Hər bir fiqur bir iştirakçıya/ iştirakçılar komandasına uyğundur. |
| Mükafat/kartlar | 25 ədəd | Rollara uyğun rəngli kartlar - 5 mavi, 5 yaşıl, 5 çəhrayı, 5 bənövşəyi, 5 sarı. Qəbul etdiyi qərar turda müzakirə edilən problemi həll edərsə və rolundan irəli gəlirsə, kart mükafat olaraq aparıcı tərəfindən ona verilir. |
| Oyunçuların rollarına müvafiq funksiya kartları | 5 ədəd | Kart seçilmiş rolların oyunda hansı funksiyalara malik olduğunu təsvir edir. Kart lövhənin üzərinə qoyulur. |
| İnsan hüquqları haqqında infoqrafika | 5 ədəd | İnfoqrafikaya müxtəlif hüquqi sənədlərdən insan hüquqlarının siyahısı daxildir (Əlavə N2) |
| Cədvəl | 1 ədəd | Aparıcının iştirakçıların nəticələrini qeyd etdiyi xüsusi cədvəl (Əlavə N3-ə bax). |

**Oyunçuların rollarına müvafiq funksiya kartları**

Oyun lövhəsinin xüsusi kartlarında qeyd olunan funksiyalar təklif olunan qurumların faktiki funksiyalarını tam əhatə etməsə də, şagirdlərin yadında qalacaq və ya onlar haqqında ümumi təsəvvür yaranacaq.

## Parlament

- Qanun təşəbbüskarı, qanunun qəbulu, dəyişdirilməsi, ləğvi
- İcraçı hakimiyyətin monitorinqi və ondan hesabat tələb edilməsi
- İstintaq komissiyasının yaradılması
- Büdcədə dəyişikliklərin təsdiqi
- İcraçı hakimiyyətə tövsiyə verilməsi



## Məhkəmə

— Gürcüstan adından qərarlar qəbul etmək

— Qanunun dəyişdirilməsi/ləğv edilməsi (Konstitusiya Məhkəməsi)

— Çıxarılan hökmə uyğun olaraq hər hansı bir quruma/şəxsə tapşırıq vermək

## Nazirlər Kabineti

— Parlamentin qəbul etdiyi qanunların icrası

— Büdcə layihəsinin hazırlanması

— Qətnamə və sərəncamların qəbulu/ləğv edilməsi

— Proqramın hazırlanması, icrası, monitorinqi

## Yerli özünüidarəetmə



— Yerli səviyyədə proqramların hazırlanması, həyata keçirilməsi və monitorinqi

— Yerli büdcə layihəsinin (meriya) yaradılması və təsdiqi (sakrebulo)

## Vətəndaş cəmiyyəti



— Petisiya yaratmaq

— Nümayiş

— Qanunvericilik təşəbbüsü üçün imzaların toplanması

— Hökumətin monitorinqi

— Cari xəbərlər işıqlandırmaq(media)

— Müxtəlif layihələrin yaradılması və həyata keçirilməsi (qeyri-hökumət)

— Məhkəməyə müraciət

Aparıcı həmin institutların ətraflı funksiyalarını verilən linklərdə baxa bilər

Gürcüstan Konstitusiyası:

https://matsne.gov.ge/ka/document/view/30346?publication=36

Gürcüstanın ümumi məhkəmələr haqqında üzvi qanunu:

https://matsne.gov.ge/ka/document/view/90676?publication=49

Gürcüstan hökumətinin strukturu, səlahiyyətləri və fəaliyyət qaydası haqqında Gürcüstan Qanunu:

https://matsne.gov.ge/ka/document/view/2062?publication=41

Gürcüstanın Üzvi Qanunu, Yerli Özünüidarəetmə Məcəlləsi

https://matsne.gov.ge/ka/document/view/2244429?publication=68

Parlamentin reqlamenti: https://parliament.ge/print/reglament

## SITUASIYA KARTLARINDAN ISTIFADƏ TƏLIMATI

Oyun 15 hekayə ilə gəlir. Verilmiş masaüstü oyun hekayələri təkrar etmədən eyni sinifdə müəllim tərəfindən üç dəfə (hər dəfə 5 hekayə) istifadə edilə bilər. Bundan əlavə, şagirdlər hər bir problemi həmişə müxtəlif rollardan həll etdikləri üçün, hekayələr təkrarlansa belə, maraqlarını itirməyəcəklər. Həm də demək lazımdır ki, müəllimlər öz hekayələrini əlavə edə və bununla da oyunu daha da şaxələndirə bilərlər.

Oyun üçün seçilmiş hekayələr realdır və Gürcüstan reallığından götürülüb. Onlardan bəziləri artıq həll olunub və aparıcı/müəllim oyunçuları sözügedən hekayələrin əslində necə bitdiyi ilə tanış edə bilər. Bəzi hekayələr oyunun yaradılması zamanı cari və aktiv mərhələdədir, ona görə də aparıcı/müəllim bu hekayələri oyun üçün seçirsə, oyunun yaradılmasından sonra hadisələrin necə inkişaf etdiyini öyrənməlidir.

***Hekayələrin/situasiya kartlarının istifadəsinə kimi nəzərə alınmalı təlimatlar***

****Hekayələrin istifadəsi şərtidir və onlardan istifadə istənilən ardıcıllıqla ola bilər.***

****Oyundakı bəzi hekayələr həssas ola bilər, buna görə də müəllim onlarla əvvəlcədən tanış olmalı və lazım gələrsə, müəyyən bir sinifdə/qrupda işləmək üçün uyğun nümunələr seçməlidir.***

***Hekayələri təqdim edərkən müəllim/aparıcı məsələni siyasiləşdirməkdən və qütbləşdirməkdən çəkinməlidir. Aparıcı hekayələrin aktual davamını şagirdlərə verilmiş qurumların funksiyaları və işi kontekstində təqdim etməlidir.***

***Situasiya kartlarındakı hekayələrlə bağlı nəticələr zamanla dəyişə bilər, ona görə də müəllimə yenilənmiş məlumat axtarmaq tövsiyə olunur.**

## ƏLAVƏ N1 – SITUASIYA KARTLARI

### Situasiya kartı N1

Əsasən bağ evləri yerləşən kənddə yaşayış evlərinin bir neçə on metrliyində qanunsuz sement zavodu yerləşir. Zavod hər gün toz buraxır ki, sakinlər illərlə həmin tozla nəfəs almaq məcburiyyətində qala bilərlər.

### Hadisələr necə inkişaf etdi?

Jiğaura kəndinin sakinlərinin etirazından sonra Mtsxeta meriyası sement zavodunun sahibinə onu sökməyi tapşırıb. Sahibkar bu vəsatətlə məhkəməyə müraciət edib. Məhkəmə zavod sahibinin şikayətini təmin etməyib. Sahib birinci instansiya məhkəməsinin qərarından apellyasiya məhkəməsinə şikayət etsə də, ikinci instansiya Şəhər Məhkəməsinin cavabını qüvvədə saxlayıb, bundan sonra biznesmen zavodu sökməyə başlayıb.

**Situasiya kartı N2**

Munisipalitetlərdən birində yaşayan hemodializdən asılı olan xəstələr müvafiq tibbi xidmət almaq üçün həftədə 3 dəfə 100 kilometrdən çox yol qət etməli idilər, çünki bu xidmət bələdiyyədə mövcud deyil. Bu isə, sağlamlıq vəziyyətinin pisləşməsi, əlavə vaxt və xərclərlə bağlıdır. Bu səbəbdən xəstələrin bir hissəsi evlərini tərk edərək başqa bölgəyə köçür, bəziləri isə sistematik olaraq xidmətlərdən istifadə etmir ki, bəzi hallarda da ölümlə nəticələnir.

**Hadisələr necə inkişaf etdi?**

Yüksək dağlıq bölgələrə fokuslanmış media vasitəsi olan "Dağ xəbərləri" Svaneti icma təşkilatı ilə birlikdə Zemo Svanetidə dializ mərkəzinin açılması tələbi ilə təbliğat kampaniyasına başladı. İlkin olaraq dializdən asılı xəstələr haqqında "Köç, ya da ölüm" adlı xüsusi reportaj hazırlanıb və böyük əks- səda doğurub. Bundan sonra "Dağ xəbərləri" 10 mindən çox imza toplayan petisiya yaradıb. Petisiya eyni vaxtda üç quruma - Dövlət Administrasiyasına, Parlamentə və İctimai Müdafiəçi Aparatına təqdim edilib. Mərkəzi media da bu xəbərləri fəal şəkildə işıqlandırıb və bir müddət sonra Səhiyyə Nazirliyi Mestia, Ambrolauri, Tianeti və daha 4 şəhərdə dializ mərkəzlərinin açılacağını bəyan edib.

**Situasiya kartı N3**

Məcburi köçkün əhalinin bir hissəsi qəzalı binada yaşayır, binanın divarları çatlayıb, təməlində su dayanır. Hər gün divarlara çatlar əlavə olunur. Bir neçə nəticəyə görə, binada yaşamaq təhlükəsiz deyil.

**Hadisələr necə inkişaf etdi?**

Tbilisidəki keçmiş “Kartli” sanatoriyasının qəzalı vəziyyətdə olan binasında məskunlaşan məcburi köçkünlər etiraz aksiyasına başlayıblar, aksiyanın əsas tələbi onların mənzillərlə təmin edilməsi olub. Proseslər mediada fəal işıqlandırılırdı. Gürcüstanın işğal olunmuş ərazilərindən olan Məcburi Köçkünlər, Əmək, Səhiyyə və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qərarına əsasən, “Kartli”də məskunlaşan məcburi köçkünlər 2022-ci ildə qeyd-şərtsiz yeni mənzil alacaqlar. 2022-ci ilin fevral ayında Məcburi Köçkünlər, Emiqrantlar və Dolanışığın Təminatı Agentliyi Tbilisidə yeni tikilmiş binada 46 məcburi köçkün ailəsinə mənzil verib. Agentlikdən verilən məlumata görə, bu mərhələdə keçmiş “Kartli” sanatoriyası və keçmiş “Okros Satsmisi” mehmanxanasında məskunlaşan köçkün ailələri müasir standartlara uyğun yaşayış sahələri əldə ediblər. Ölkənin hər yerində məcburi köçkünlərin köçürülməsi prosesi fəal şəkildə davam edir. 2022-2024-cü illərdə 13 min məcburi köçkün ailəsi layiqli mənzil alacaq”, - Məcburi Köçkünlər işi üzrə Agentlikdən bəyan edirlər.

**Situasiya kartı N4**

Vəziyyətindən asılı olaraq davranış problemləri və/və ya ünsiyyət problemi olan fiziki məhdudiyyətli şəxslər yalnız ümumi anesteziyaya məruz qaldıqları halda, yəni narkozdan istifadə olunduğu halda stomatoloji xidmətlər ala bilərlər ki, bu da böyük maliyyə ilə bağlıdır. Bu səbəbdən də çətin sosial- iqtisadi vəziyyətdə olan fiziki məhdudiyyətli şəxslər diş ağrısı zamanı dözülməz ağrılara dözməli olurlar.

**Hadisələr necə inkişaf etdi?**

Fiziki məhdudiyyətli uşaqlardan birinin anası sosial şəbəkədə oğlunun dişlərindəki dözülməz ağrılara görə anesteziya ilə stomatoloji xidmətlərin haqqını ödəmək üçün kömək istədiyi bir yazı dərc edib. Status PHR (İnsan Hüquqları üzrə Tərəfdaşlıq) təşkilatının nümayəndələri tərəfindən də oxunub. Təşkilatın qiymətləndirməsində, ölkənin hər yerində davranış problemləri və/ və ya ünsiyyət problemi olan fiziki məhdudiyyətli şəxslərin dözülməz ağrılara dözməli olması qeyri-insani rəftar kimi qiymətləndirilib və bundan sonra təşkilat məhkəmə davasına başlayıb.

Dava zamanı PHR Gürcüstan hökuməti davranış problemləri və/və ya ünsiyyət problemi olan fiziki məhdudiyyətli şəxslər üçün ümumi anesteziya , yəni"narkozlu" stomatoloji prosedurlarının olduğu 30 günlük gözləmə müddəti olmadan istisnasız olaraq bütün halları maliyyələşdirəcək bir mexanizm yaratmaq üçün dərhal göstəriş verilməsini tələb edirdi. Məhkəmə sözügedən vəsatətə 3 gün ərzində baxıb və müvəqqəti qərarla təmin edib. Əsas tələbə gəlincə, bu xidmətin proqram halına salınması zəruri idi, ona görə də stomatoloji xidmətlərin rahat qəbulu üçün ünsiyyətdə çətinlik çəkən və davranış pozğunluğu olan fiziki şəxslər üçün xüsusi mexanizmin/proqramın/xidmətin yaradılmasını tələb etdik”. – deyə təşkilatın səhifəsində oxuyuruq.

2021-ci il 10 mart tarixində başlayan iş 2023-cü ilin martında uğurla başa çatdı. Dövlət yeni xidmət yaratdı, müvafiq olaraq məhkəmə prosesləri dayandırıldı.

**Situasiya kartı N5**

Araşdırmalara görə, ölkədə hər dördüncü uşaq yoxsulluq içində yaşayır. Şagirdlərin 77%-i məktəbdə bəzən və ya həmişə ac qalır ki, bu da savadlılıq səviyyəsinə birbaşa təsir göstərir.

**Hadisələr necə inkişaf etdi?**

2021-ci ilin sentyabrında "Səs" hərəkatı ümumi ödənişsiz məktəb yeməklərinin tətbiqi tələbi ilə kampaniyaya başladı. Məktəbdə ödənişsiz yemək məsələsi müxtəlif siyasi partiyalar tərəfindən seçkiqabağı vədlərində qaldırılıb.

2023-cü ilin məlumatlarına görə, təhsil naziri Parlamentdə hökumətin proqrama başlamaq üçün büdcədən pul ayırmaq iradəsinin olduğunu bildirib. Və onu da qeyd edib ki, “bu problem görünüb və heç kim bu məsələdən qaçmır. Biz işləyirik, büdcədə müvafiq vəsait tapmaq üçün istək və imkanımız var, lakin bu, yalnız maliyyə məsələsi deyil, bir sıra digər vəzifələrin də həllini tələb edir.

Dövlət ictiami məktəblərdə mövcud vəziyyətin öyrənilməsi nəticəsində şaxələndirilmiş yanaşmaların həyata keçirilməsinin zəruri olacağı üzə çıxıb. Bu, məktəbin hazırlığı, infrastrukturun vəziyyəti və inkişaf imkanları, eləcə də yerli biznesin marağı ilə bağlıdır. Qeyd olunan prosesdən əvvəl ictimai iaşə obyektlərinin təşkili, təchiz edilməsi və istismarı üçün sanitar qaydalara uyğun olaraq müvafiq infrastrukturun təşkili aparılmalıdır. Dövlət məktəblərinin bərpası və tikinti prosesində yeməkxanaların və ya çoxfunksiyalı yerlərin ayrılması nəzərə alınıb.

Paralel olaraq, Nazirlik müxtəlif beynəlxalq təcrübə və araşdırmalar,

infrastrukturun inkişafı ilə yanaşı, bu mühüm məsələyə sistemli şəkildə necə yanaşa biləcəyimizə dair yanaşma və metodologiyalar üzərində işləyir. Bu layihə çox dərin emal və logistikaya ehtiyac duyur. Biz metodologiyanı, sistemi, bütün məktəblərdə uşaqların qidalanmasının necə təmin olunmasını müzakirə edirik", - deyə nazir bildirib.

**Situasiya kartı N6**

Şəhərdəki kimya, metallurgiya və digər müəssisələr yerli əhalinin mühüm məşğulluq mənbəyidir. Yerli fəalların sözlərinə görə, bu və ya digər müəssisədə 8 minə yaxın şəhər sakini çalışır. Lakin müəssisələr insanları işə götürməklə yanaşı, həm də havanı çirkləndirirlər. Bu şəhər havadakı zərərli maddələrin tərkibinə görə ən çox çirklənmiş şəhərlərdən biridir. Məsələn, Atmosfer Havasının Keyfiyyət üzrə Portalındakı məlumata görə, son 365 günün təxminən 273-də və ya ilin 75%-də şəhərdə "çox pis" və ya "pis" hava var idi.

Havada bərk hissəciklərin miqdarı - "PM10" və "PM2.5" icazə verilən həddi aşır ki, bu da bir çox xəstəliklərin səbəbinə çevrilə bilər.

**Hadisələr necə inkişaf etdi?**

2018-ci ildə "Boğulduq" vətəndaş hərəkatı könüllü başlanğıclar əsasında yaradılıb. Bu müddət ərzində onlar bir sıra aksiya və tədbirlər təşkil etmiş, yerli və mərkəzi orqanlarla əlaqə saxlamış, işçi qruplara və qanunvericilik aktlarının müzakirəsinə cəlb olunublar.

2021-ci ilin yayından Rustavi üçün mühüm qanunvericilik dəyişiklikləri qüvvəyə minib.

Bu dəyişikliklərə əsasən, tullantıların müəyyən edilmiş limiti keçdiyi halda şirkət 5 min laridən 40 min lariyə qədər cərimələnə bilər. Həmçinin şirkətlərə tullantıların miqdarını aşması barədə məlumatı avtomatik olaraq Ekologiya və Kənd Təsərrüfatı Nazirliyinə təqdim edəcək özüölçən cihazları quraşdırmaq tapşırılıb. Üçüncü Düzəlişə əsasən, qanun Ətraf Mühitin Mühafizəsi Departamentinə xüsusilə böyük pozuntu halında məhkəmə qərarı olmadan obyekt cihazını və ya bütün obyekti möhürləməyə icazə verir.

**Situasiya kartı N7**

Munisipalitetdə yaşayan dini azlıq nümayəndələri öz ziyarətgahlarını tikmək üçün yerli hökumətdən icazə istəyirlər, lakin nəticəsiz şəkildə.

**Hadisələr necə inkişaf etdi?**

Gürcüstan müsəlmanları özləri təşkilatlanaraq Batumidə məscid tikmək üçün torpaq sahəsi satın alıblar, lakin Batumi meriyası onlara yeni məscidin tikintisi üçün lazımi icazəni verməkdən imtina edib. Meriyanın bu qərarından Batumidə yeni məscidin tikintisi üçün fond tərəfindən məhkəməyə şikayət edilib. Müsəlman icmasının maraqlarını məhkəmədə EMC və TDI müdafiə edir. 2019-cu ilin sentyabrında Batumi Şəhər Məhkəməsi müsəlman icmasına qarşı diskriminasiya aşkar edib, 2021-ci ildə isə Kutaisi Apellyasiya Məhkəməsi Batumi Şəhər Məhkəməsinin qərarını qüvvədə saxlayıb. 2023-cü ildən iş Ali Məhkəmədə baxılır.

**Situasiya kartı N8**

Davranış çətinliyi, autizm spektri olan 14 yaşlı yeniyetmə onun çətin davranışına nəzarət olunacaq və xüsusi yardım göstəriləcək gündüz baxım mərkəzi və ya xüsusi müəssisə əvəzinə psixiatriya poliklinikasına yerləşdirilib. Klinikada yeniyetməni dərmanlardan istifadə edərək "sakitləşdirirdilər", bu da diaqnozun idarə edilməsi üçün uyğun bir yanaşma deyil. Valideyn dövlətdən yardım, müvafiq xidmətlər və uşağa fərdi köməkçinin təyin edilməsini xahiş edir.

**Hadisələr necə inkişaf etdi?**

"İnsan Haqları Naminə Tərəfdaşlıq" təşkilatının göstərdiyi hüquqi yardım nəticəsində Tbilisi Şəhər Məhkəməsi 2020-ci ilin 28 sentyabrında misilsiz qərar qəbul etdi - Lukanın həyatını qorumaq və onun üçün təhlükəsiz mühit yaratmaq məqsədilə o, PHR-nin tələbini müvəqqəti hökmlə təmin etdi. Məhkəmə Gürcüstan hökumətini uşaq üçün Lukaya həftənin 7 günü, gündə 12 saat evdə və evdən kənarda təhlükəsiz qalmasına kömək edəcək 4 şəxsi köməkçi ayırmağı tapşırıb.

Lukanın işi nəticəsində ölkədə qanunvericilik səviyyəsində sistemli dəyişikliyin həyata keçirilməsi xüsusilə mühümdür. Nəticə etibarı ilə bütün fiziki məhdudiyyətli uşaqlar ehtiyacların qiymətləndirilməsi ilə müəyyən edilmiş zərurət yarandıqda fərdi köməkçi xidməti ala biləcəklər.

Bu dəyişikliklə sağlamlıq imkanları məhdud uşaqlar, o cümlədən ağır və dərin inkişaf pozğunluğu olan uşaqlar gündüz baxım mərkəzlərində şəxsi köməkçilərlə təmin olunacaqlar. Evdən qayğı alt proqramına gəldikdə, davranış pozğunluğu olan uşaqlar üçün, multidissiplinar komanda tərəfindən müəyyən edilmiş

ehtiyaclar olduqda, Lukanın halında olduğu kimi, fərdi qayğı xidmətlərini həyata keçirmək mümkün idi.

**Situasiya kartı N9**

İndiyədək böyük bir müəssisədə yaşayan fiziki məhdudiyyətli şəxslər müstəqil həyata başlamaq istəyir və dövlətdən mənzillə təmin edilməyi istəyir.

**Hadisələr necə inkişaf etdi?**

Gürcüstan Ali Məhkəməsinin 2020-ci il, 29 oktyabr tarixli qərarına əsasən, Qardabani Munisipalitetinin Qamqeobası ilə 5 il davam edən dava başa çatıb və Yerli özünüidarəetməyə fiziki məhdudiyyətli şəxslər pansionatında yaşayan vətəndaşa qanuni təminatlı mənzilin verilməsi tapşırılıb.

**Situasiya kartı N10**

Yetkinlik yaşına çatmış, uşaqlıqdan eşitmə qabiliyyətini itirmiş qadın, fiziki məhdudiyyətli şəxs statusu və fiziki məhdudiyyətli şəxs pensiyası almaq hüququna malik olduğunu aşkar etdi. O, Səhiyyə Nazirliyinin lisenziyası olan poliklinikaya müraciət edib. Lakin uşaqlıq illərində apardığı audioqramı təqdim edə bilmədiyi üçün poliklinika ona fiziki məhdudiyyətli şəxs pensiyası təyin edən fiziki məhdudiyyətli şəxs statusunu verməkdən imtina edib.

**Hadisələr necə inkişaf etdi?**

Vətəndaş fiziki məhdudiyyətli şəxs pensiyasını almaq üçün məhkəməyə müraciət edib. İşə hər üç instansiya məhkəmələri baxıb. Nəhayət, Ali Məhkəmə təqdim olunan sübutları nəzərə alaraq vətəndaşın vəsatətini təmin edib. İş üzərində PHR hüquqşünasları: Ana Arqanaşvili və Tamar Kapanadze işləyirdi.

**Situasiya kartı N11**

İş yerində yenidən təşkil nəticəsində üç işçi işdən çıxarılıb. Halbuki, bir qayda olaraq, bütün işçilər müsabiqə olmadan yeni yaradılmış quruma köçürülməli idi.

**Hadisələr necə inkişaf etdi?**

Sosial işçilərə üç təşkilat hüquqi yardım göstərib: 8 sosial işçinin hüquqları Sosial Ədalət Mərkəzi, 7-si Həmrəylik Şəbəkəsi, 8-i Gənc Hüquqşünaslar Assosiasiyası tərəfindən qorunub.

2022-ci ilin fevral ayına olan məlumata görə, 23 dava üzrə 18 iddiaçının icraatı artıq başa çatıb. Bir sıra hallarda məhkəmələr iddiaçıların tələblərini tam təmin etmişlər - onlar işdən çıxarılma əmrlərini etibarsız sayaraq, Treffikinq Qurbanlarına Qayğı və Yardım Dövlət Agentliyinə sosial işçilərin işə bərpa olunmasını və onların məcburi əməyə cəlb etdikləri kompensasiyaların tam ödənilməsini tapşırıblar.

**Situasiya kartı N12**

Dövlətdə 30-a yaxın insan axondroplaziya diaqnozu ilə yaşayır. Axondroplaziya təxminən 25.000 uşaqdan birində rast gələnən nadir genetik xəstəlikdir. Bir gen mutasiyasına görə, bu diaqnozu olan insanların sümük quruluşu qeyri-mütənasib şəkildə inkişaf edir ki, bu da tez-tez xroniki ağrı, eşitmə itkisi və oxşar simptomların səbəbi olur.

Axondroplaziyanın idarə edilməsi dövlət tərəfindən maliyyələşdirilmir. Bu diaqnoz Səhiyyə Nazirliyinin “Nadir xəstəlikləri olan və daimi əvəzedici müalicəyə məruz qalan xəstələrin müalicəsi” proqramına daxil edilməyib.

2021-ci ildə ABŞ Qida və Dərman İdarəsi (FDA) və Avropa Dərman Agentliyi (EMA) Voxzogo (aktiv maddə - Visodorit) dərmanına icazə verdi. Bu dərman sindromu və səbəb olduğu simptomları müalicə etmək üçün istifadə edilən ilk dərmandır.

Uşaqların gündəlik istifadə etməli olduğu dərman çox bahadır. Onun qiyməti 10 inyeksiya üçün 10 min ABŞ dollarına çatır.

**Hadisələr necə inkişaf etdi?**

Axondroplaziyadan əziyyət çəkən uşaqların valideynləri dövlət orqanlarından uşaqlarının fiziki inkişafı üçün vacib dərman vasitəsini almağı tələb edirdilər. Aylar ərzində həm Hökumət Kanselariyasında, həm

də Səhiyyə Nazirliyində nümayişlər keçirilirdi. Nəhayət, uşaqlar fiziki məhdudiyyətli şəxs statusu aldılar və Baş nazir 2023-cü il 22 may tarixli fərmanı ilə nadir diaqnostik axondroplaziyanın nadir xəstəliklər siyahısına daxil edilməsinə və ona kod verilməsinə imza atdı.

Nadir Xəstəliklər üzrə Koordinasiya Şurası axondroplaziya ilə bağlı milli protokolu təsdiqlədi. Axondroplaziya üzrə milli protokola əsasən, ilk mərhələdə dərmanı 5-6 uşaq alacaq, çünki dərmandan istifadə yaşı məhduddur.

**Situasiya kartı N13**

Dövlət məktəblərinin müəllimlərinə analıq məzuniyyətində olan zaman ümumiyyətlə maaş verilmir. Qanun direktorları analıq məzuniyyəti ödəməyə məcbur etmir və bu, yalnız onların xoş niyyətindən asılıdır.

**Hadisələr necə inkişaf etdi?**

2022-ci ilin əvvəlində müəllimlərdən biri uşaq doğumu ilə əlaqədar analıq məzuniyyətinə çıxan demək olar ki, bütün müəllimlərin maaşlarını ala bilməsi üçün qanunvericilik təklifi ilə Gürcüstan parlamentinə müraciət edib. Bundan əlavə, müəllimlər 5000-dən çox imza toplayan petisiya yaradıblar. Parlament müəllimin təklifini təsdiqləmədi, çünki onların izahatına görə, bu xərclər artıq 2023-cü il dövlət büdcəsi qanun layihəsinə daxil edilib və əlavə qanunvericilik dəyişikliyinə ehtiyac qalmayıb.

**Situasiya kartı N14**

İşğal olunmuş ərazidə yaşayan, neytral şəxsiyyət vəsiqəsi olan ağır fiziki məhdudiyyətli şəxs, fiziki məhdudiyyətli şəxslər üçün nəzərdə tutulmuş pensiyanın təyin edilməsi üçün Sosial Xidmət Agentliyinə müraciət edib. Təəssüf ki, Sosial Xidmətlər Agentliyi onun dövlət vətəndaşı olmadığı üçün belə sosial yardımdan yararlana bilməyəcəyini bildirərək tələbi təmin etməyib.

**Hadisələr necə inkişaf etdi?**

Apellyasiya Məhkəməsi işğal olunmuş ərazidə qanuni olaraq yaşayan neytral şəxsiyyət vəsiqəsi olan şəxsləri Gürcüstan vətəndaşlarına bərabər tutaraq qeyd edib ki, sosial-hüquqi dövlətin prinsipləri işğal olunmuş ərazidə yaşayan insanların, o cümlədən fiziki məhdudiyyətli şəxslərin cəmiyyətə inteqrasiyasına qayğı göstərmək, və əsas xidmətlərə əlçatanlığın təmin edilməsi dövlətin müsbət öhdəliyidir.

**Hekayə N15**

2009-cu ildə əlil arabasından istifadə edən fiziki məhdudiyyətli qız dövlət məktəblərindən birinə getməyə başladı. 2015-ci ilə qədər onun əlil arabası olmayıb və anası tərəfindən məktəbə aparılıb.

2017-ci ildə reabilitasiya işləri ilə əlaqədar məktəb yeniyetmənin evindən uzaqda yerləşən yeni binaya köçürülüb. Məktəb şagirdlərin daşınması üçün nəqliyyat xidməti yaratdı. Lakin Nazirlik və məktəb nəqliyyat xidmətini seçərkən yeniyetmənin tələbatını nəzərə almayıb və nəqliyyat vasitəsinin onun əlil arabası üçün qeyri-müvafiq olduğu müəyyən edilib. Bu səbəbdən qız məktəbsiz qalıb. Nəqliyyat çatışmazlığı səbəbindən uşağın anası "evdə təhsil" proqramına yazdırmağa razılaşmağa məcbur oldu, lakin o, tezliklə uşağın evdə məcburi təhsil almasının məktəbdən kənar qalmağa və bütün il boyunca dostsuz qalmağa bərabər olduğunu anladı.

**Hadisələr necə inkişaf etdi?**

Telavi Rayon Məhkəməsinə müraciət edən "İnsan Haqları Naminə Tərəfdaşlıq" təşkilatı uşağın hüquqlarını müdafiə etməyə başladı, lakin məhkəmə onların tələbini təmin etmədi. Birinci İnstansiya Məhkəməsinin qərarından Tbilisi Apellyasiya Məhkəməsinə şikayət verildi və Tbilisi Apellyasiya Məhkəməsi 2023-cü il fevralın 14-də yeni qərar çıxardı və Telavi Rayon Məhkəməsinin qərarından fərqli olaraq, Gürcüstanın Təhsil və Elm Nazirliyi tərəfindən fiziki məhdudiyyətinə görə diskriminasiya faktını aşkar etdi və mənəvi ziyana görə kompensasiya təyin edildi.

**Oyun zamanı istifadə edilə bilən hüquqi sənədlər**

https://matsne.gov.ge/ka/document/view/30346?publication=36

- Gürcüstan Konstitusiyası

https://matsne.gov.ge/ka/document/view/1399901?publication=0

- Uşaq Hüquqları Konvensiyası

https://matsne.gov.ge/ka/document/view/1208370?publication=0

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiya

**Əlavə N3 - Nəticələrin əks olunacağı cədvəl**

| | Raund N1 | Raund N2 | Raund N3 | Raund N4 | Raund N5 |
|---|---|---|---|---|---|
| Dairə | | | | | |
| Üçbucaqlı | | | | | |
| Dördbucaqlı | | | | | |
| Beçbucaqlı | | | | | |
| Altıbucaqlı | | | | | |

**Situasiya kartlarını yaratmaq üçün istifadə olunan material:**

1. “Mestiada dializ xidməti istifadəyə verilib” https://www.radioatinati.ge/regioni/article/79402-mestiashi-dialezis-servisi-amoqmedda.html

2. “Tbilisidə 46 köçkün ailəsinə mənzillər verilib” https://1tv.ge/news/46-devnil-ojakhs- tbilisshi-binebi-gadaeca/

3. “Ciğaura kəndində sement zavodunun sökülməsi – yerli əhalinin qələbəsi” https://greenpole.org/sophel-jighauras-tsementis-qarkhnis-demontaz hi-adgilobrivi-mosakhleobis-gamarjveba/

4. Lukanın işi nəyi bacardı https://www.phr.ge/index.php/activity/child-rights/457?lang=geo

5. "Məktəblərdə ödənişsiz yemək proqramının tətbiqi sistemi üzərində 2020-ci ildən işləyirik - Nazir" https://bm.ge/news/skolebshi-ufaso-kvebis-programis-danergvis-sistemaze-2020- wlidan-vmushaobt---ministri/134391

6. „Batumu məscidi işi” https://socialjustice.org.ge/ka/products/batumis-mechetis-sakme

7. "Ali Məhkəmənin qərarı - Yerli özünüidarəetmə orqanının fiziki məhdudiyyətli şəxsə mənzili qanunla təmin edilmiş şəkildə vermək öhdəliyi var" https://phr.ge/publication/decisions/184?lang=geo

8. “Şorena Pxaladze fiziki məhdudiyyətli şəxs pensiyasını məhkəmədən zorla alıb" https://phr.ge/publication/news/591?lang=geo

9. “Sosial Ədalət Mərkəzi, GGHA və Solnet işdən çıxarılan sosial işçilərin 18 işini uğurla tamamladı” https://socialjustice.org.ge/ka/products/sotsialuri-

samartlianobis-tsentrma-saiam-da-solnetma-gatavisuflebuli-sotsialuri-mushakebis-18-sakme-tsarmatebit-daasrula

10. “Axondroplaziya üzrə Milli Protokola əsasən, dərmandan istifadə yaşı məhdud olduğundan, birinci mərhələdə dərman vasitəsi ilə 5-6 uşaq müalicə olunacaq”. https://1tv.ge/news/aqondroplaziis-erovnuli-protokolis-mikhedvit-pirvel-etapze-medikamentit-5-6-bavshvi-imkurnalebs-radgan-wamlis-gamoyenebis-asaki-shezghudulia/

11. Parlamentə irəli sürülən müəllimlərə ödənişli analıq məzuniyyəti tələbi və komitənin mövqeyi https://publika.ge/pedagogebistvis-dekretuli-shvebulebis-anazghaurebis-motkhovna-parlamentshi-da-komitetis-pozicia/

12. “Sosial Ədalət Mərkəzi Abxaziyada yaşayan fiziki məhdudiyyətli şəxslərlə bağlı məhkəmə işini udub” https://socialjustice.org.ge/ka/products/sotsialuri-samartlianobis-tsentrma-afkhazetshi-mtskhovrebi-shshm-piris-sakmeze-sasamartlo-dava-moigo

13. „Nininin qalibiyyəti“ https://phr.ge/publication/news/565?lang=geo

14. Hökuməti davranış problemləri və/və ya ünsiyyət problemi olan fiziki məhdudiyyətli şəxslər üçün ödənişsiz stomatoloji xidmət göstərməyi məcbur edən qərar https://www.phr.ge/activity/child-rights/215?lang=geo

15. Rustavi nə ilə nəfəs alır https://on.ge/story/86372-%E1%83%A0%E1%83%90%E1%83%A1-%E1%83%A1%E1%83%A3%E1%83%9C%E1%83%97%E1%83%A5%E1%83%90%E1%83%95%E1% 83%A1-%E1%83%A0%E1%83%A3%E1%83%A1%E1%83%97%E1%83%90%E1%83%95%E1%83%98